AZERBAIJAN INTERNATIONAL

**Baş məqalə**
**Bir daha qaçqınlar barədə**
**Betti Bleyer**

Mənbə: Azerbaijan International jurnalı - AI 5.1 (Yaz 1997)
© Azerbaijan International

Doğma yurd itkisindən ağrılı itki yoxdur.
Evripid, e.ə 431-cı il

Verilən məlumatlara əsasən hazırda dünya əhalisinin sayı 5.7 milyarddır. Və bu əngin insan okeanında 27 milyon əhali öz doğma yurd-yuvalarından didərgin salınmışdır. Bəziləri dəhşət və qırğından can qurtarmaq üçün sərhədlər aşmışlar. Başqaları isə azərbaycanlılar kimi öz vətənlərində pənah yeri taparaq məhdud resurslar, xüsusilə də torpaq, sığınacaq, iş yerləri, təhsil alma imkanı və infrastrukturada hədsiz gərginliyə səbəb olmuşlar. 27 milyon adamın didərgin düşməsi fikri adamı dəhşətə gətirir, lakin bu rəqəm dünya əhalisinin 1/2-dən də azını təşkil edir.

Lakin Azərbaycanda vəziyyət daha faciəlidir. Dağlıq Qarabağ uğrunda gedən müharibə nəticəsində öz ev-eşiklərindən qaçqın düşənlərin sayı bir milyona çatır ki, bu da 7,5 milyonluq azərbaycan xalqının 13 faizini təşkil edir. Deməli Azərbaycan bütün dünyanın köçkün əhalisinin dörd faizinin acısını öz çiyinlərində çəkir ki, bu da Avstriyadan yaxud Meyn ştatından böyük olmayan bir ölkə üçün hədsiz dərəcədə yüksək göstəricidir.

Qaçqınların birinci dalğası 1988-ci ildə bütün ömrü boyu Ermənistanda yaşayan azərbaycanlılar oldu. Bir il sonra Məshəti türkləri Özbəkistanda baş verən etnik toqquşma nəticəsində Azərbaycana pənah gətirdilər. Bütün bu didərgin salınmışların sayı Azərbaycan hələ Sovet İttifaqının tərkibində olan zaman 250000-ə çatmışdı.

Lakin Sovet İttifaqı dağıldıqdan sonra ermənilər sistemli şəkildə azərbaycanlıları onlara məxsus olan və əsrlər boyu sıx məskunlaşdıqları Qarabağ anklavından çıxarmağa başladılar.

Qarabağda fitnə-fəsad törədilən zaman orada ermənilərin üstünlük təşkil etməsi faktı doğrudur. Onların əksəriyyəti 19-cu əsrin əvvəllərində Qafqazdan kənarda olan ərazilərdən Rusiyanın köçürdüyü əhalinin törəməsidir.

1992-1993-cü illərdə isə azərbaycanlılar mətbuatda ¨etnik təmizləmə¨ adını almış proses nəticəsində Qarabağdan tamamilə çıxarıldı. Öz yurdlarını tərk etməyənlər isə ya öldürüldü ya da girov götürüldü (onların bəziləri hələ də geri qaytarılmayıb).

Daha sonra erməni hərbi qüvvələri özlərinə ¨bufer zonası¨ yaratmaq vəsiləsi ilə Qarabağdan kənarda olan ərazilərə hücum etməyə başladılar. Əslində isə onların əsas məqsəqi sövdələşmədə həlledici rol əldə etmək imkanı qazanmaq idi və onlar Azərbaycan ərazisinin 20%-ni işğal edərək yüz minlərlə insanı didərgin salana qədər sakitləşmədilər. Gərginliyi zəiflədən atəşkəs 1994-cü ilin may ayında bağlandı. Lakin Azərbaycan öz torpaqlarının geri qaytarılmasını və insanların geri dönməsini istəyir.

Öz ölkəmizdə təxminən yeddi nəfərdən birinin hər şeyini, gəlir mənbəyini, torpağını itirdiyi halda necə xaos yaranacağını fikirləşmək belə adamı qorxudur. Hətta yüksək səviyyəli infrastruktur sisteminə malik olan ölkələrdə belə bu cür şəraitdə sosial xidmət çox çətin vəziyyətə düşəcək.

Bu baxımdan Azərbaycan kimi yenicə çiçəklənməyə başlayan bir ölkə üçün mərkəzləşmiş sovet sistemini məhv etmək, bazar iqtisadiyyatına keçmək və bu böhranı həll etmək hədsiz dərəcədə çətindir.

Skeptiklər belə hesab edirlər ki, Azərbaycan potensial olaraq dünyanın ən varlı ölkələrindən biri olduğundan beynəlxalq yardım olmadan özü bu fəlakətin öhdəsindən gələ bilər. Lakin hələ neft xarici bazarlara axmağa başlamayıb və təxminən bir milyon qaçqının yaşayışını təmin etmək üçün isə həmin vaxtı gözləmək mümkün deyil.

Azərbaycanda qaçqın probleminin çox yüksək səviyyədə olmasına baxmayaraq, dünya ictimaiyyəti bundan çox az xəbərdardır. Bu səbəbdən biz ikinci dəfə bu mövzuya qayıtmaq qərarına gəldik. [Aİ 2.1, yanvar 1994-cü il ¨İnamsızlıqla dolu qış¨ nömrəsinə internetdə bax]. Beş illik nəşriyyat təcrübəmizdə biz heç vaxt  bir dəfə işlənimiş mövzuya təkrar qayıtmamışıq. Ancaq bu mövzu üçün bir dəfə kifayət deyil. Adətən biz Azərbaycanı möhkəmləndirmək üçün edilən səylərdən bəhs edirik, lakin bəşər övladının çəkdiyi bu əzabı sadəcə seyr etmək mümkün deyil.

Qərb dünyasının bu problem barədə az məlumatı olmasının bir səbəbini də mətbuatın təsiri ilə əlaqələndirmək olar. Qərb mətbuatında belə bir tendensiya var ki, Qarabağ müharibəsi dini müharibədir. Demək olar ki, hər bir məqalədə onlar mütləq qısa ¨konsevləşdirilmiş¨ paraqraf daxil əlavə edərək bu konfliktin ¨Xristian Ermənilər¨ və ¨Müsəlman Azərbaycanlılar¨ arasında baş verməsi haqda məlumat verirlər.

İlk baxışdan zərərsiz görünən bu sözlər əslində ermənilərin xeyrinədir. Doğrudur, onlar hər iki ölkədə olan tendensiyaları nümayiş etdirirlər. Lakin sovetdən qalma miras olaraq hər iki dövlət inam və etiqad məsələsi baxımından dünyəvi dövlətlərdir - azərbaycanlılar ermənilərdən daha dünyəvidirlər.

Lakin dərindən düşündükdə müharibənin köklərinin daha dərin ideoloji fərqlərə calandığı meydana çıxır. Asan izahat axtaran əksər qərblilər üçün digər müzakirəyə ehtiyac yoxdur; onlar artıq ¨pis adamların¨ kimlər olduğunu bilirlər. Çox az hissəsi daha dərin tədqiqat aparıb həqiqəti üzə çıxarmaq haqqında fikirləşir.

Azərbaycanlılar dini yaxud etnik fərqin konfliktə səbəb olan yeganə amil olması fikrinə etiraz edərlər. Əksinə onlar bu müharibəni ermənilərin Azərbaycan ərazisini (Dağlıq Qarabağ) işğal etmək üçün hazırladıqları təcavüzkarlıq kimi qəbul edir.

Ermənistan əslində ABŞ-ın ən kiçik ştatlarından olan Meriləndla müqayisə ediləcək qədər kiçikdir. Ermənistanın ərazisi nahamar olaraq əsasən dağlıq ərazidən ibarətdir. Əksinə Qarabağda torpaq çox münbit və minerallarla, xüsusilə də qızılla zəngindir. Əgər Ermənistan indi işğal etdiyi Azərbaycan ərazisini öz torpaqlarına birləşdirsə, ərazisi iki dəfə artacaq.

Əhalisi 3 milyondan azca çox olan Ermənistan Sovet İttifaqı dağıldığı gündən beynəlxalq müavinət hesabına yaşayır. Təkcə ABŞ özü Ermənistana hədsiz qrant ayırmışdır - adam başına ayrılmış qrantın miqdarına görə İzraildən sonra ikinci yerdədir. 1992-ci ildən bəri 619 milyon dollar almışlar. Lakin Erməni Diasporasının Rusiya, İran, Avropa və BMT-dən Ermənistana göndərlən pul bu hədsiz rəqəmə daxil deyil. Müqayisədə ABŞ 7,5 milyonluq əhalisindən 1 milyonu qaçqın olan Azərbaycana 92 milyon dollar vermişdir (qeyri-hökumət təşkilatları vasitəsi ilə).

Qafqaz ölkələri sosialist sistemindən demokratiyaya və bazar iqtisadiyyatına keçdiyindən bu dövr tarixi bir andır. Erməni ekstremistləri bu anın vacıbliyini nəzərə almır və ölkənin uzun-müddətli inkişafında üzaqgörənlik etmirlər. İnadcıllıq və qətiyyətlə onlar özlərini Azərbaycanın təbii ehtiyatları hesabına öz ətraflarında gedən sürətli iqtisadi inkişafdan bəhrələnməkdən məhrum edirlər. Bu regionda inkişaf və mövcudluq üçün əsas amil qarşıdurma yox əməkdaşlıqdır. Bir millət nə qədər başqalarının əmlakını, torpağını oğurlamaqla, soyğunçuluqla, ələbaxımlılıqla yaşayar?

Əksər hallarda beynəlxalq ictimaiyyət kənardan dini konfliktlərin həll edilməsini çox çətin hesab edir. Çox güman ki, qeyri-süuri olaraq belə bir nəticəyə gəlmişlər ki, müharibə edən tərəflər saldıqları dolaşıqlığı özləri çözməlidirlər çünki, başqa heç kim bu dolaşıqdan baş çıxara bilməz.

Bu cür münasibət bəsləmələrinə baxmayaraq beynəlxalq humanitar təşkilatları əsl vəziyyətdən xəbərdardılar və ehtiyat və mütəxəssis çatışmazlığına baxmayaraq Azərbaycana bu böhrandan çıxmaq üçün əllərindən gələni etmişlər. Onların fəaliyyəti çox dəyişikliyə səbəb olmuşdur. Bir çox qaçqınlar öz həyatları üçün bu alicənablığa borcludurlar və Azərbaycan icraedici qrupu bu yardımı qəbul edənlər sırasında birincidir.

Jurnalın bu nömrəsini hazırlayarkən mən bu yaxınlarda bir müddət düşərgələrdə qaçqınlarla birgə yaşadım. Orada öz doğma ocağına qayıtmaq istəməyən adam tapmaq çox çətindir. Bu onların gündəlik danışıq mövzusudur. Onlar sənə deyəcəklər: ¨İstədiyimiz bircə şey varsa, o da geri qayıdıb həmişə altında oturduğumuz ağacı tapmaqdır. Bu illər ömrümüzün ən pis anlarıdır.¨ Yaxud: ¨Kaş geri qayıdıb, öz aynəbəndimizdə bir dəfə durub sonra öləydim.¨

Ancaq reallıqda isə tezliklə geri qayıtmaq qaçqınların əksəriyyətinə qismət olmayacaq. Yardım prosesinə cəlb olunanlar bilirlər ki, sülh müqaviləsi sabah bağlansa belə geri qayıdıb təzədən məskunlaşmaq beş yaxud beş ildən də çox çəkəcək. Müharibə ərazisi çox sıx şəkildə minalanmışdır, bu minaların təmizlənməsi çox təhlükəlidir və ifrat dərəcədə maliyyə tələb edir.

Evlərin əksəriyyəti tamamilə dağıldığından bərpa işləri də həyata keçirilməlidir. Lakin azərbaycanlı qaçqınların əksəriyyəti hələ də inanaır ki, onların geri qayıtmaq arzuları ürəklərində qalmayacaq və bir gün Allahın və Əliyevin köməkliyi ilə o günü görəcəklər.

Prezident Karterin zamanı ABŞ-ın Milli Təhlükəsizlik Şurasının keçmiş sədri Zbigniyev Brezinski 1995-ci ildə Azərbaycandakı qaçqın düşərgələrindən bəzilərinə səfər etmişdi. O orada şəraitin necə ¨qeyri-insani¨, hətta Əfqanıstan və Fələstindəki şəraitdən də pis olduğunu müşahidə etmişdi.

Ondan sonrakı iki ildə çöx şey dəyişməyib, təkcə cır-cındırdan düzəldilmiş hava saxlamayan çadırlar torpaq kərpic və əhəng daşından düzəldimiş evlərlə əvəz edilmişdi. Sanitariya hələ də bərbad vəziyyətdədir; adamlar çoxlu sayda ictimai vasitələri ortaq işlətməlidirlər. Dəri xəstəliyi olan qotur sanitar xidmətin olmamasından çox geniş yayılmışdır və yay aylarında xüsusilə tüğyan edir. Axar su düşərgələrin çoxuna gün ərzində ancaq bir neçə saat verilir. İsti duş demək olar ki, mövcud deyil.

Düşərgələrin əksəriyyətinin salındığı dayaz palçıqlıqları yay vaxtı ağcaqandlar bürüyür. Ötən il yüzlərlə malyariyaya yoluxma hədisəsi qeydə alınmışdı. Bu il yəqin ki, belə hallar daha çox baş verəcək. Dörd il düşərgədə yaşadıqlarından qida azalmışdır. Bu günlərdə qida yalnız çay və çörəkdən ibarətdir. Ailələrin bəziləri o qədər kasıbdırlar ki, hətta kerosin almağa belə imkanları çatmır və yanacaq kimi işlətmək üçün qoyun qığı axtarırlar.

Qaçqınların qarşılaşdıqları fiziki, iqtisadi, sağlamlıqla bağlı çətinliklər içində ən böyük faciə üşaqların payına düşür. Bədbəxtlikləri onların parlaq gözlərinə və ötəri təbəssümlərinə həkk olunmuşdur. Sadəcə olaraq, qaçqın təcrübəsi onların təhsil almaq imkanının təhlükə altına qoyulmasıdır. Bu dilemma təxminən 99%-i ziyalı olan valideynlərə daha çox əzab verir. Onlar üçün kitab azlığından 9-10 yaşlı uşaqlarının güclə oxuduqlarını görmək çox ağırdır. Hətta 1991-ci ilin sonlarında qəbul olunmuş yeni əlifbadan ən çox qaçqın uşaqlar ziyan çəkir. Çox az kitab, xüsusilə ilkin dərslik kitabları yeni əlifbada nəşr edilmişdir.

Ağrılı tərəf odur ki, uşaqlar yaddan çıxarılır. Bu Azərbaycanın üzləşdiyi ən mürəkkəb problemlərdən biridir. Öz gücünə arxalanaraq müstəqil dövlət yaratmağı qarşısına məqsəd qoyan bu xalq qaçqın uşaqları diqqətdən kənarda saxlamaqla bu yeni nəsli itirə bilməz. Bütün mümkün imkanlardan istifadə edib onları cəmiyyətin axarına qoşmaq lazımdır.

Bu prosesi asanlaşdırmaq üçün, iri düşərgələri ləğv etmək barədə düşünülməlidir. Oradakı şərait elə ağırdır ki, adamlar yalnız öz şəxsi ehtiyacları ilə məşğul olur. Ona görə də sosial vəziyyəti yaxşılaşdırmaq barədə düşünmürlər. Bu cür düşərgələr əcnəbi fundamental hərəkatlarının və narazılığın yaranmasında məhək daşı rolunu oynayır. Əgər camaat köçürülərək daha kiçik, daha asan idarə edilə biləcək, nisbətən müstəqil və davamlı icmalarda yerləşdirilməsə, gec-tez siyasi və sosial partlayışa səbəb olacaq. Proses nə qədər tez həyata keçirilsə, o qədər yaxşıdır.

Bu səbəbdən bir çox humanitar agentliklər daha acınacaqlı vəziyyətdə olan qaçqın dəstələrini yenicə tikilməyə başlayan kifayət qədər balaca qəsəbələrə köçürməyə başlayıblar. Və bu

prosesdə boyu inşaatçılar işlərini davam etdirdikcə və yeni sakinlər məskunlaşdıqca əhəngdaşından məktəbin və ictimai mərkəzlərin tikilməsi imkanları gerçəkləşir. Lakin bu ¨abadlaşdırmanı¨ həyata keçirmək üçün maliyyə fondlarına ciddi ehtiyac var, yoxsa proses başa çatdırıla bilməz.

Tək 2000 dollara donorlar Beynəlxalq Yardım və UNHCR (BMT-nin Qaçqınlar Üzrə Ali Komissiyası) vasitəsi ilə özlərinin adından ¨bir məktəbi himayəyə götürə bilərlər¨. Bu xüsusi şəxslərin, mədəni cəmiyyət və biznesin cəlb oluna biləcək mümkün yollardan biridir.

Azərbaycan dilində ¨qaçqın¨ sözü ¨qaçan¨ mənasını verir. Sözün anlamına görə onlar üçün istirahət, təhlükəsizlik, bəladan qorunmağa sığınacaq yoxdur. Biz hamımız yorulmadan bu faciəvi dövrün tez keçməsi üçün əlimizdən gələni etməliyik. Belə halda bu ¨qaçanlar¨ xüsusilə uşaqlar əzab və səfillikdən tez xilas olmuş olarlar.

---

Tərcümə: Aynurə Hüseynova
Veb üçün hazırlayan və redaktə edən: Arzu Ağayeva